Əli Zərbəli

# Hər şey dəyişəndə

*(və digər hekayələr)*

qanun nəşriyyatı

*Anam üçün*

**Əli Zərbəli** **Hər şey dəyişəndə**
*(və digər hekayələr)*
Bakı, Qanun Nəşriyyatı, 2024, 184 səh.

Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 08.05.2024

| | |
|---|---|
| Redaktor: | Vüqar Van |
| Korrektor: | Vüqar Van |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Xəyalə Şirinli |
| Qapaq dizaynı: | Həsən Zərbəli |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-950-0

© Qanun Nəşriyyatı, 2024
© Əli Zərbəli 2024

Müəllif bu kitabda fərqli üslubları, təhkiyə formalarını müxtəlif hekayələrin vasitəsi ilə sınaqdan keçirir. İlk baxışdan hekayələr bir-birindən fərqli görünsələr də, onları ortaq bir cəhət birləşdirir; hekayələrdəki adamlar miskin və bəzən tragikomik vəziyyətlərə düşürlər, həyatın absurdluğunun qarşısında cılızlaşırlar. Sanki həyat onları ələ salır.

Kitabın adı – "Hər şey dəyişəndə" içindəki bütün hekayələrin qayəsini özündə daşıyır.

*"Həyat asan olanda necə də asandır, çətin olanda isə necə də çətin".*

*Philph Roth – "Arzu professoru"*

# MÜNDƏRİCAT

Ürəkbulanma ........ 9
Corab oğrusu ........ 20
Qəhqəhə ........ 25
Adamlar və çinarlar ........ 40
Qan və süd ........ 58
Başsağlığı ........ 73
Solğun pərdələr və parlaq qalstuklar ........ 93
1/2 ........ 101
Yay tətilini necə keçirdim ........ 125
Kölgə, yaxud itmiş sözlərin
izahlı lüğəti ........ 150
Hər şey dəyişəndə ........ 164

# ÜRƏKBULANMA

– Harda qaldın?

– Çatıram, çatıram.

Emil öz ad gününə gecikirdi. Yığıncaq Sahibin evində baş tutacaqdı. Bir həftə əvvəl Sahiblə arabir getdikləri boğanaq kafedə işdən sonra oturub boğazlarını yaşlayanda söhbət Emilin ad günündən düşmüş, Sahib ondan iyirmi doqquz yaşını necə və harada keçirmək istədiyini soruşmuşdu, Emil isə düz-əməlli bir cavab verə bilməmişdi.

– Vallah, heç bu haqda fikirləşməmişəm. İşdən başım ayılır ki?! Çapırlar məni ofisdə.

Sahib göy-göyərtidən ağzına dürtə-dürtə ona yorğunluqdan və içəridəki bürküdən qızarmış içkili gözlərini dikmişdi. Ancaq dinib-danışmamışdı.

– Vallah, hansısa restoranda-filan yığışmaq heç ürəyimcə deyil, elə bugünlərdə fikirləşirdim ki, ev məclislərinin yeri başqadı. Ancaq bizim ev də balacadı, on-on beş nəfərin rahat oturacağı yer deyil.

Sahib baxışlarını aşağı dikib süfrədə yeməyə nəsə axtara-axtara təklif etmişdi:

– Bizdə yığışarıq, ev genişdi, kimi istəsən, çağırarsan. Binanın altında da əla bir kababçı var. Daha nə istəyirsən?

Emil, əvvəlcə, onun bu təklifini yarıladıqları arağın müsbət təsiri kimi qiymətləndirmişdi, ancaq sonradan başa düşmüşdü ki, Sahib təklifində səmimidir.

***

Emil iyirmi dəqiqə idi ki, tıxacda ilişib qalmışdı. Hava qaralmışdı. Gələn zəngləri açıb bircə kəlmə "çatıram" deyib söndürürdü. Əslində, düz deyirdi, qarşıdakı dairəni keçsə, on dəqiqəyə orda olacaqdı. Qabaqdakı maşın karvanına baxanda bağrı çatlayırdı. Həm evdən gec çıxdığına, dostlarını gözlətdiyinə görə özünü məzəmmət edir, həm də nəhayət, ünvana çatıb işdən heç cürə vaxt edib görüşə bilmədiyi dostlarını görmək, onlarla içib keflənmək, deyib gülmək üçün səbirsizlənirdi. Hər dəqiqədən bir köks ötürür, ayağını qaza ehmalca basıb bir neçə metrdən sonra əyləci sıxır, arxaya söykənərək əllərini sükandan çəkib başının arxasında daraqlayır, sakit axşamda motorların uğultusu, tez-tez eşidilən səbirsiz siqnallar qulağına dolub onu bezdirəndə, fikrini dağıtmaq üçün narazı və narahat baxışlarını boş-boş reklam lövhələrində, yol nişanlarında, enli şosenin kənarında

görünən təkər sexində, üstündə qırmızı fonda iri ağ hərflərlə "dönər" yazılmış budkada gəzdirirdi.

Dayanmadan tırıldayan avtomobillərdən çıxan işlənmiş qaz arxa faraların qırmız-narıncı işığında aram-aram burulub havaya qalxır, havada qatı, boz təbəqə yaradıb səmadakı ulduzları görünməz edirdi. Soyuq külək işlənmiş qazın zəhərli qoxusunu yolun kənarındakı müştərisiz xudmani "fast-food" məkanından yayılan iştahaaçan qoxuya qarışdırmışdı. Sürücülərin bəziləri bir gözü yolda telefonda qurdalanır, bəziləri qapalı şüşələrin arxasında deyinir, bəziləri də boyunlarını toyuq kimi dayanmadan sağa-sola burur, qarşıda azca boş məsafə yarandığını görən kimi qaz verib tez özlərini ora soxurdular.

***

Nəhayət, yol yavaş-yavaş açılırdı. Çox keçməmiş Emil də boynunu yolun sağ tərəfinə döndərib qorxu dolu maraqla baxan digər sürücülər və sərnişinlər kimi bazar günü belə bir tıxacın niyə yarandığını başa düşdü. Dəhşətli bir qəza olmuşdu. İki maşın qabaq-qabağa toqquşmuşdu. Hər ikisi tanınmaz hala düşmüş, ön tərəfləri əzilib-bükülərək arxaya sıxılmışdı, kənardan elə görünürdü, sanki maşınlar metaldan yox kağızdan hazırlanıblar. Əzik-üzük kağız parçasını andıran metal hissələr və ətrafa səpələnmiş çilik-çilik şüşələr uzağı bir saat əvvəl hərəkətdə olan bu maşınları qəfildən həmişəlik da-